# Qurbanvermə ritualı nəzəri fikir tarixində

**Sevinc Əliyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*AMEA-nın Folklor İnstitutu*
**E-mail:** sevinc-aliyeva1989@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. R.O. Qafarlı,
filol.ü.e.d., prof. R.M. Əliyev

**Açar sözlər:** ritual, mərasim, qurbanvermə, sosial antropologiya, E.B.Taylor, C.C.Frezer
**Ключевые слова:** ритуал, обряд, жертвоприношение, социальная антропология, Э.Б.Тайлор, Дж.Дж.Фрезер
**Key words:** ritual, ceremony, sacrifice, social antropology, E.B.Taylor, J.G.Frezer

"Qurbanvermə" də "mədəniyyət tarixinin çox mürəkkəb və şaxəli struktura malik layı" kimi, əsasən, XIX əsrdən Qərbdə ciddi şəkildə öyrənilməyə başlamış, toplanmış materiallar əsasında müxtəlif baxışları, konsepsiyaları, nəzəriyyələri əks etdirən çoxsaylı tədqiqatlar meydana çıxmışdır. Həmin araşdırmalar içərisində ilk növbədə diqqəti XIX əsr Qərb sosial antropoloji fikrinin nəhəng nümayəndələri olan Eduard Bernett Taylor və Ceyms Corc Frezerin araşdırmaları cəlb edir.

E.B.Taylorun baxışları. Ümumiyyətlə, XIX əsr Qərb antropoloji fikir tarixində təkamül nəzəriyyəsinin hakim olduğu dövrdür. A.İ.Perşits yazır ki, XVIII əsrin ikinci yarısı və xüsusilə XIX əsrin birinci yarısı təbiət haqqındakı elmlərdə ilahi yaradılış aktı ilə meydana gəlmiş varlıqların dəyişilməzliyi haqqında mürtəce bibliya-kilsə ehkamlarının əksinə olaraq, təbii təkamül ideyalarının təsdiq olunduğu zamanlar idi (6, 6).

Əlbəttə, dünyanın ilahi başlanğıcını inkar edib, onun "öz-özünə" yaradıldığını və təbii seçmə yolu ilə təkamül etdiyini irəli sürən təkamül nəzəriyyəsi (evolyusyonizm) müasir dövrümüzdə heç də hamı tərəfindən qəbul olunmur. Artıq elmdə tam yeni baxış, konsepsiya və nəzəriyyələr meydana çıxmışdır və bunların içərisində varlıq aləminin ilahi başlanğıca malik olduğunu təsdiq edən baxışlar da vardır. Amma sözü gedən dövrdə təkamül nəzəriyyəsi ümumiyyətlə tarixə və inkişaf konseptinə baxışları yerli-dibli dəyişdi. Bu, eyni zamanda qurbanvermə kimi bəşər tarixinin davamlı hadisəsinə də inkişaf ideyası baxımından müxtəlif yanaşmaların meydana gəlməsinə səbəb oldu. Yəni qurbanvermənin bütün dünyada səmavi-dini kitablarla təsbit olunan formaları onun ibtidai cəmiyyətlə də mövcud olan formaları ilə müqayisə edilməyə, bu müqayisə fonunda, qurbanvermənin inkişaf-təkamül istiqamətləri müəyyənləşdirilməyə başlandı.

E.B.Taylorun məşhur "İbtidai mədəniyyət" adlı əsərində qurbanvermə adətinin quruluşu, formaları və inkişafı məsələlərindən etnoqrafik materiallar əsasında geniş şəkildə bəhs olunmuşdur. O, din tarixi boyunca qurbanvermənin dəyişən tiplərindən danışarkən bu barədə üç nəzəriyyəni qeyd edir:

1. Hədiyyə nəzəriyyəsi;
2. Şərəfləndirmə nəzəriyyəsi;
3. Məhrumetmə, yaxud üz döndərmə nəzəriyyəsi (7, 466).

Müəllif qeyd edir ki, birinci yeri, təbii ki, "hədiyyə" nəzəriyyəsi tutur.

Qurbanvermənin qəbul edən tərəfin (ilahi varlığın – *S.Ə.*) hədiyyəni necə qəbul edəcəyi və onunla nə edəcəyi barəsində heç bir təsəvvürə malik olmadan həyata keçirilən bu təmiz uşaq üsulu ibtidai və ən başlanğıc formadır (7, 466).

Qeyd edək ki, mədəniyyət tarixində bu hala tez-tez rast gəlinir: mədəniyyətin bu və ya digər adətinin daşıyıcısı həmin adətin mənası ilə bağlı suallara etnoloqu təmin edəcək izahlar verə bilmir. Bizcə, bunu ondan gəzləmək də doğru deyildir. Belə ki, ənənə daşıyıcısı həmin onların içərisində doğulur, ta körpəlikdən ölənə qədər həmin ənənələrin obyektinə çevrilir, ənənənin tələb etdiyi məzmun və forma əsasında böyüyür, formalaşır və nəhayət, cəmiyyətin tam hüquqlu üzvü kimi o ənənələrin daşıyıcısına və qoruyucusuna çevrilir. Onun mənsub olduğu cəmiyyətin bütün ənənələri – adətlər, mərasimlər, ənənəvi davranış normaları və s. həmin insanın, sadəcə, yaşam, mövcudluq üsuludur. O, həmin ənənələrdən başqa heç bir mövcudluq üsulu tanımır və öz cəmiyyətindən qıraqda gördüyü yaşam ənənələrini də özünə "yad", "özgə", "düşmən" olan həyat normaları kimi qəbul etmir. Bu ənənələr həmin insan və onun cəmiyyətinin varlığı instinktiv qavrayışının məhsulu olmaqla, sosial-bioloji hadisədir. Taylorun qeyd etdiyi "hədiyyə nəzəriyyəsi" də gerçəkliyin biososial qavrayışının məhsulu olmaqla ibtidai insanın, sadəcə, həyat tərzidir. Onun üçün, sadəcə, fövqəladə gücə malik olan (ilahi) qüvvələr var, həyatı həmin qüvvələrdən asılıdır və o, həmin ilahi varlıqlara hədiyyə/qurban verməklə öz həyat problemlərini həll edir.

Qurbanvermənin "şərəfləndirmə" nəzəriyyəsinə görə, növbəti mərhələdə artıq qurban verilən ilahi qüvvənin şərəfinə böyük mərasimlər keçirilir. Bu mərasimlər ziyafətlərlə (bir növ, indiki mənasında olan ehsanlarla – *S.Ə.*) müşayiət olunur (7, 476).

Qeyd edək ki, Oğuz mədəniyyət tarixində də qurbanın "şərəfləndirmə" ilə bağlılığı özünə geniş yer tutmuşdur. Ağaverdi Xəli yazır ki, əski oğuzların ritual qurbanları el quruluşlu dövlətçilik dövründə sakral məzmunundan tamamilə məhrum olmur, onun müəyyən bir hissəsi "karnavallaşır", oğuz el başçıları, xanların ictimai həmrəyliyini gücləndirmək məqsədilə icra etrdikləri möhtəşəm şöklində şəklində eposa daxil olur (4, 158).

Qurbanvermənin "məhrumetmə", "yaxud "üz döndərmə" nəzəriyyəsinə görə, insan üçün tanrılara verilən hədiyyə/qurban tədricən pərəstiş əlamətinə çevrilir. "Tanrı insandan qiymətli hədiyyə almır, sitayiş edən özü hədiyyəni qurban edir". Bu, bir növ, insanın borcuna çevrilir və o, öz maddiyyatının müyyən hissəsindən tanrılar naminə "üz döndərir" (7, 476-477).

Beləliklə, Taylorun baxışlarına görə, qurbanvermə ilk olaraq qeyri-şüuri hədiyyə vermələr şəklində olmuş, sonralar bu mərasimlər tanrıların (müxtəlif kultların) şərəfinə keçirilən təntənəli mərasimlərə çevrilmiş, nəhayət, "qurbanvermə" dini düşüncə ilə yaşayan insanların ziyarətgahlara, pirlərə, ocaqlara, qurbangahlara, məbədlərə "borcu" halına gəlmişdir.

Əlbəttə, bunlar E.B.Taylorun baxışlarıdır və elm tarixində buna fərqli yanaşmalar da var. Məsələn, Robertson Smitin Taylorun "hədiyyə" nəzəriyyəsi adlandırdığı qurbanvermə formasına baxışları fərqlidir. O, təsdiq edir ki, lap əvvəllər qurban verilməsi tanrıya hədiyyə yox, qəbilə üzvlərinin öz aralarında və qəbilənin tanrısı ilə ünsiyyət forması idi. Ən qədim qurban da (heyvanının öldürülməsi və yeyilməsi) ilahinin özünün, yaxud totemin iştirak etmək üçün dəvət olunduğu birgə qəbilə ziyafəti idi (8, 589-590).

C.C.Frezerin baxışları. Qeyd edək ki, etnologiya elmi belə bir-birindən fərqli izahlarla zəngindir. Qurbanvermənin mənşəyi, formaları, ondakı ayrı-ayı ayinlərin simvolikası ilə

bağlı müxtəlif fikirlər vardır. Bunların içərisində C.C.Frezerin baxışları diqqəti cəlb edir.

C.C.Frezer özünün məşhur "Qızıl budaq" əsərində qurbanvermə faktlarına, o cümlədən insanların qurban verilməsi məsələlərinə geniş şəkildə toxunmuşdur. Məsələn, o, hökmdarın oğlunun qurban verilməsi məsələsindən danışarkən yazır ki, əgər biz müvəqqəti hökmdar institutunun (təsisatının – *S.Ə.*) mənşəyini düzgün təsəvvür edə biliriksə, onda bir sıra hallarda əvəzedicilərin həmin nəslə mənsub olmasının səbəbini çətinlik çəkmədən ehtimal edən bilərik. Həqiqi hökmdar əlinə öz həyatının yerinə başqa insanın həyatını qurban vermək fürsəti düşəndə bu əvəzlənmənin həqiqi olduğunu sübut etməli idi. Ona görə də əvəz olaraq qurban verilən insan da müqəddəslik xüsusiyyətlərinə malik olmalı idi (9, 275).

Müəllifin bəhs etdiyi "müvəqqəti hakimiyyət" mərasimi dünya xalqlarının mədəniyyət tarixi üçün xarakterik və məşhur mərasimdir. Azərbaycan mədəniyyət tarixi də belə faktlarla zəngindir. Məsələn, M.F.Axundovun "Aldanmış kəbakib" əsərində həqiqi şah (Şah Abbas) müvəqqəti şahla (Yusif Sərrac) əvəz olunur. Bu mərasimi icra etməkdə məqsəd ulduzlardan gələcək ölüm bəlasını həqiqi şahdan yayındırıb, başqasının üzərinə yönəltməkdir. Yaxud "Kitabi-Dədə Qorqud" dastanının Dəli Domruldan bəhs edən boyunda ölməli olan Dəli Domrulun canı başqalarının canı ilə əvəz edilir. Bütün bu halların əsasında qurbanvermə ritualı durur. Şah Abbasın canının əvəzində Yusuf Sərracın canı, Dəli Domrulun canının əvəzində onun ata-anasının canı qurban verilir. Frezerin bəhs etdiyi mərasimdə də həqiqi hökmdarın ölməməsi üçün onun nəslindən olan başqa birisi qurban verilir.

Frezer bəhs edilən mərasimdə qurbanın müqəddəsliyini xüsusi vurğulayır. Bu nöqtə ümumiyyətlə qurbanvermə ritualının mənasının anlanmasında mühüm məqamdır. Qurbanın, əsasən, müqəddəs sayılır. Çünki qurban tanrıya verildiyi üçün o, tanrılara layiq olmalıdır.

N.Qramatikova yazır ki, qurbanın müqəddəs olmasının əhəmiyyəti səmavi olub-olmamasından asılı olmayaraq, bütün din və inancların müqəddəs kitablarında vardır (2, 45).

Göründüyü kimi, müasir dini və ənənəvi düşüncədə qurban bütün hallarda müqəddəs sayılır. Bunun kökləri ibtidai çağlara, mifoloji-dini düşüncəyə gedib çıxır. Mifologiyada varlıq aləmini təşkil edən ünsürlər sakral (müqəddəs) və profan (adi) olmaqla iki qismə ayrılır. İnsanların dünyası adi dünya, tanrıların dünyası müqəddəs dünyadır. Qurban tanrılara verildiyi, başqa sözlə, onlara aid edildiyi üçün o da müqəddəs olmalı idi.

C.C.Frezer yazır ki, əksər əkinçi cəmiyyətlərində adamların öz taxçılçılıq tanrılarını həm həqiqi görkəmində (düyü, taxıl və s.), həm də insan və heyvan şəklinə salınmış formalarında öldürmək və yemək adətləri var idi. Bu adət ovçuluq və heyvandarlıqla yaşayan cəmiyyətlərdə mövcuddur. Kult əşyaları, yaxud tanrıların sırasına ovçuların, heyvandarların pərəstiş etdikləri və öldürdükləri, lakin fövqəladə varlıqların təcəssümü olmayan ən adi heyvanlar daxildir (9, 467).

Müəllifin ibtidai ovçu və əkinçi cəmiyyətlərinin həyatına dair verdiyi bu məlumatdan aydın olur ki, qurbanvermədə qurbanın yeyilməsi mühüm hadisədir. Burada ən mühüm və diqqətçəkən nöqtə verilən qurbanın tanrını təmsil etməsidir. Yəni qurbanda öldürülən və yeyilən obyekt elə tanrının özüdür. İnsanlar tanrını yeməklə ona qovuşurlar, bu da Azərbaycan dilində olan "qurban" sözünün mənası ilə tam üst-üstə düşür. Ərəb mənşəli "qurban" sözünün mənasının "yaxınlıq", "qohumluq" olduğunu təkrar yada salsaq, tanrının yeyilməsinin onunla qovuşmağa, birləşməyə, qohumlaşmağa xidmət etdiyi aydın

olur.

C.C.Frezerin qurbanı və şərəfinə qurban verilən tanrını eyniləşdirməsi onun baxışlarında əsas yer tutur. S.A.Tokarev qurbanvermənin mənşəyindən danışarkən yazır ki, ingilis dinşünası Ceyms Frezer "ünsiyyət nəzəriyyəsini" inkişaf etdirmişdir. Qurban ətindən dadma, bir növ, tanrının yeyilməsidir. (8, 590).

Qurbanvermənin ümumiyyətlə yeməklə bağlılığını bir sıra dillərin materialları ilə də təsdiq olunur. N.N.Yerofeyeva göstərir ki, latın, yunan və rus dillərində qurbanvermə ilə bağlı sözlər bu və ya digər şəkildə "yemək" anlayışı ilə bağlıdır. Məsələn, rus dilində "jreti" (tıxışdırmaq) – "jrat" (yemək), "jertva" (qurban) – "jratva" (bişintilər, yeməklər), "jrets" (kahin) – "objora" (qarınqulu) kimi sözlər bunu təsdiq edir (5, 123).

Amma qeyd etməliyik ki, tanrının yeyilməsi İslam ənənəsində yoxdur və tədqiqatçılar bunu tamamilə inkar edirlər. Bu, özünü xüsusilə "qurban" sözünün mənasını izah edərkən göstərir.

Dursun Gümüşoğlu yazır ki, "qurban" sözü ərəbcədə yaxınlıq deməkdir. "Əqrəba", "qurban", "qurbiyət" eyni kökdən gəlir. Bu, iki cismin bir-birinə yaxınlığı anlamında deyildir. "Qurban" sözünün mənası insanı Allaha yaxınlaşdırma deməkdir (3, 111). Refik Engin de göstərir ki, "qurban" sözü ibrani dilindən ərəb dilinə arami dilinin vasitəsilə keçmişdir. Ərəbcə "krb" kökündə yaxın olma (qurbiyət) mənası vardır. Bu səbəbdən Tanrıya yaxınlaşmaq üçün təqdim olunan mənasında izah olunur (1, 48).

Göründüyü kimi, islami düşüncədə Allah və ona verilən qurban qətiyyən eyniləşdirilmir. İslam dinində Allah qeyri-maddi (məkansız və zamansız) başlanğıcdır və ona "verilən" qurbanlar ibtidai düşüncədə olduğu kimi heç də Allahın özünə verilmir. İslam dini kəsilən qurbanları Allah adına insanlara verilən ehsan hesab edir. Yəni islamiyyətdə Allah varlıq aləminin fövqündə durur və niyyət edən insanın Allaha xatir, Allah adına kasib bəndələrə ehsan etdiyi qurban həmin insanı cismən deyil, savab əməlləri ilə Allaha yaxınlaşdırır. Başqa sözlə, İslam dini ibtidai düşüncədə təsəvvür edildiyi kimi, qurban vasitəsilə Allaha cismən yaxınlaşmağı, qovuşmağı, birləşməyi, qohumlaşmağı, əqrabalaşmağı qətiyyuən rədd edir.

**Məqalənin aktuallığı.** Qurbanvermə hər bir milli mədəniyyət tarixində olduğu kimi, Azərbaycan xalqının da tarixi və müasir mədəniyyətində xüsusi yerə və rola malikdir. Bu mövzuya müxtəlif tədqiqatlarda toxunulsa da, haqqında monoqrafik tədqiqat aparılmamışdır. Həmin tədqiqatların nəzəri-metodoloji bazasını Qərb nəzəri fikri təşkil edir. Məqalədə əsas məqsəd bu fikir bazasını elmi fikir dövriyyəsinə daxil etməkdir.

**Məqalənin elmi yeniliyi.** Göründüyü kimi, qurbanvermə adəti dünyanın ən qədim və müasir xalqlarının ənənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Onun nəzəriyyəsi XIX əsrdən Qərbdə yaranmağa və formalaşmağa başlamışdır. Bu sahədə E.B.Taylor və C.C.Frezerin araşdırmaları böyük rol oynamışdır. Həmin fikirlər işığında milli mədəniyyət tariximizə nəzər saldıqda qurbanvermənin Azərbaycan ənənəvi mədəniyyətinin dünəni və bü günü üçün səciyyəvi olduğunu görürük. Mərasimlərimizə nəzər saldıqda burada qurbanvermənin insan qurban verməden tutmuş ən müxtəlif formalarına qədər izlərinə rast gəlmək mümkündür. Yəni qurbanvermə həm canlı mərasim, həm də folklor motivi kimi mədəniyyətimizdə öz varlığını sürdürməkdə davam edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin nəzəri əhəmiyyəti onda əldə olunmuş nəticələrdən qurbanverməyə aid tədqiqatlarda istifadə imkanları, praktiki əhəmiyyəti isə ondan folklorun tədrisində köməkçi vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

## Ədəbiyyat

1. Engin R. Geçmişten Günümüze Amucalarda Kurban Ve Kurban Gelenekleri (makale) / Kırklar Sofrasından İrfan Sohbetleri. Avangard Print Yayınevi, 2016, s. 47-110.
2. Gramatikova N. Kurban (makale) / Kırklar Sofrasından İrfan Sohbetleri. Avangard Print Yayınevi, 2016, s. 45-46.
3. Gümüşoğlu D. Kurban nedir, İnsanlık Tarihinde Kurban Anlayışı (makale) / Kırklar Sofrasından İrfan Sohbetleri. Avangard Print Yayınevi, 2016, s. 111-122.
4. Xəlil A. Oğuz eposunda inisiasiya, sakrallaşdırma və qurban (toplu) / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı: Elm, 2018, № 1, s. 53-59.
5. Ерофеева Н.Н. Архаический жертвенник как текс договора человеческого коллектива с богом об условиях землепользования / Жертвоприношение: Ритуал в культуре и искусстве от древности до наших дней (сборник статей). Москва: Языки русской культуры, 2000, с. 123-146.
6. Першиц А.И. Предисловие / Тайлор Э.Б. Первобытная культура. Москва: Политиздат, 1989, с. 5-16.
7. Тайлор Э.Б. Первобытная культура. М.: Политиздат, 1989, 574 с.
8. Токарев С.А. Ранние формы религии. М.: Издательство политической литературы, 1990, 622 с.
9. Фрезер Дж.Дж. Золотая ветвь. М.: Издательство политической литературы, 1984, 703 с.

**С. Алиева**

## Ритуал жертвоприношения в истории теоретической мысли
## Резюме

Жертвоприношение является неотъемлемой частью традиционных культур древнейших и современных народов мира. Теория жертвоприношения была создана и сформулирована на Западе в XIX веке. В этой области существенную роль сыграли труды крупных западных этнологов, таких как Э.Б.Тайлор и Дж.Дж.Фрезер. Рассмотрение истории Азербайджанской культуры на свете этих трудов выявляет характеричность ритуала жертвоприношения для нашей культуры. Исторический фонд Азербайджанских ритуалов жертвоприношения охватывает все его формы: начиная от человеческих до иронических жертвоприношений. Жертвоприношение, как живой ритуал и фольклорный мотив, продолжает существование в нашей современной культуре.

**S. Aliyeva**

## The sacrificial ritual is in the theoretical idea
## Summary

The sacrificial ritual is an integral part of the traditional culture of the ancient and contemporary peoples of the world. Its theory began to be created and formed in the West from the XIX th century. E.B Taylor and J. G. Frezer's research have played a major role in this area. In the light of those ideas, when we look at our national history, we see that

sacrifice is characteristic of the past and present of traditional Azerbaijani culture. When we look through our ceremonies, it is possible to find traces of sacrifice from human sacrifice to various forms of sacrifice. That is, sacrifice continues to exist in our culture, both in lively ceremonies and folklore motives.

**Redaksiyaya daxil olub:** 18.06.2019